# Belkıs İbrahimhakkıoğlu:

## "Əslimiz-kökümüz azəridir..."



***- Belkıs xanım, biz "Türk ədəbiyyatı" dərgisinin Azərbaycandakı oxucuları sizi yazılarınızdan tanıyırıq. Onu bilirik ki, 90-cı illərin əvvəlində Azərbaycanda da olmusuz... Amma bir daha özünüzü yaxından tanıtmağın heç bir ziyanı yoxdur...***

- Mən Ərzurumda doğulmuşam. İlk və orta təhsilimi də elə Ərzurumda tamamladım. O səbəbdən Ərzurumun xatirələrimdəki yeri çox dərindir. Bütün fəsillərdə. Xüsusilə qış aylarının. Həqiqətən də Ərzurum - qış mövsümünü altı ay sərasər bağrında bəsləyən oba şəhəridir. Dağlar, düzlər, caddelər, küçələr, damlar - hara baxsanız hər tərəfin bəmbəyaz olduğunu görərsiz. Qış aylarında havanın istiliyi heç vaxt sıfırdan yuxarı qalxmazdı. Hətta bəzi vaxt mənfi otuz beş-qırx dərəcəni də yaşamışdıq. Dolayısıyla soyuqdan qorunmaq üçün vaxtımızın çoxunu bağlı məkanlarda keçirərdik, bayır-bucağa çıxmazdıq. Keçmiş dövrlərin səslərinin hopduğu eski evlər hələki yıxılmayıb, indiyəcən durur. Günün ən sevdiyimiz bölümü, axşamlar közü düşən sobanın istisində böyüklərimizin danışdığı nağılları, peygəmbər qissələrini, övliya rəvayətlərini, tarixi hekayətləri dinləməkdi...

***- Belə çıxır ki, lap uşaqlıqdan folklorla, ədəbiyyatla nəfəs almısız...***

- Bəli... Üstəlik onu da deyim ki, atam şairiydi və dərgahlarda böyüyüb, boya-başa çatmışdı. Dostlarıyla bir araya gəldiyində söhbət təsəvvüfdən, ya da şeirdən düşərdi. Atam bir könüldən-min könülə Füzuli aşiqiydi. Demək olar ki, Füzulinin külliyatını əzbərdən bilirdi. Bizim ruh dünyamız da istər-istəməz bunlarla bəslənmiş olardı. Üniversitet çağlarım, gənclik dünyam və düşüncələrimin coşqusu ilə qaynaşan 70-ci illərə təsadüf edir. Tam bir il, Ankarada keçmiş adı Mülkiyyə olan Siyasal Elmlər Fakültəsində oxudum. İkinci kursda İstanbul Universiteti İqtisadiyyat Fakültəsinə keçdim. Çünkü o ərəfədə ailəliklə Ərzurumdan İstanbula köçmüşdük. Universiteti bitirdiyimdə ixtisasımla əlaqədar bir sahədə işləmək heç könlümdən olmadı. Ekonomidən, iqtisadiyyatdan ağlım bir şey kəsmirdi, ona görə... Könlümdə ədəbiyatla bağlı olan bir işdə işləmək arzusu vardı.

***- Bizdə belə bir məsəl var - niyyətin hara, mənzilin ora...***

- Nə gözəl... Demə çox arzusunda olmalı imişəm ki, ikicə il sonra Əhməd Kabaklı Xoca ilə tanış oldum. Daha sonra Xoca özünün başçılıq etdiyi Türk Ədəbiyyatı Vakfında çalışmağımı istədi. Təbii ki, böyük məmnuniyyətlə qəbul elədim...

***- Əhməd Kabaklını bizdə də çox yaxşı tanıyırlar və qədr-qiyməti də bəllidir.***

- Əhməd Kabaklı millətinin dilinə, ədəbiyyatına, tarixinə, ümümiyyətlə, bütün dəyərlərinə sevdalı, ideal bir insanıydı. Eyni zamanda öz düşüncələrini qorxusuz-ürküsüz dilə gətirən usta bir qəzetçiydi. Məmləkətin zor zamanlarında xalqın gur səsi olmuşdu. Onunla eyni fikirləri bölüşməyənlər belə ona

"Xocam" deyə hörmətlə üz tutardılar. Əhməd Kabaklı Xoca, Türk Ədəbiyyatı dərgisi və vakfını - öz ideallarını gerçəkləşdirəcəyi bir ocaq kimi görürdü, dərgini də bu niyyətlə qurmuşdu. Dərgini çıxaranda o dövrün çox qiymətli isimlərini öz ətrafında toplamışdı. Vəzifəyə başladığım illərdə Vakfımız bu günkü imkanlara sahib deyildi. Hamımız bütün işlərlə məşğul idik. İşimizin nə vaxt başlayıb nə vaxt qurtaracağı bəlli deyildi. Bunun fərqinə də varmırdıq. Ailəmizə, ev-eşiyə çox az vaxt ayıra bilirdik. Vakf ve dərgi bizim həyatımıza çevrilmişdi. Yazı yazırdıq, reportajlara gedirdik, otaqların səliqə-sahmanına əl gəzdirirdik, biş-düş eləyirdik; bununla belə ədəbi-mədəni mühiti izləyirdik, dərgimizə abunə yazdırmaq üçün ayağımız altımıza gəlmirdi, yəni həmişə hərəkət edirdik. Bütün bu işləri də sevə-sevə, can-u könüldən görürdük. Duyduğumuz mənəvi həzz bizim bəsimiz idi.

***- Onu da deyək ki, Əhməd Kabaklı Türk uluslarına ilk körpü atmaq istəyənlərdən idi.***

- Bəli, Kabaklı Xoca, Türk dünyalarıyla əlaqə qurmağa çox əhəmiyyət verirdi. Oralardakı, xüsusilə də Azerbaycandakı ədəbi mühiti, ordakı şair və yazarların əsərlərini Türkiyədəki oxuyucuya tanıtmaq dərdindəydi. Sovetlər Birliyi hələ dağılmamış olduğundan birbaşa əlaqə qurmaq çox çətiniydi. Kabaklı Xoca da bu əlaqəni Almaniya vasitəsiylə yaratmışdı. Allah qəni-



qəni rəhmət etsin, sonradan Müslüman olmuş Ahmed Şmide Türkçəni və Türk ədəbiyyatını yaxşı bilən bir almanıydı. Kabaklı Xoca ilə soraqlaşır və Azərbaycandakı şair ve yazarların şeirlərini, hekayələrini göndərirdi. Məsələn, bizlər rəhmətlik Bəxtiyar Vahabzadəni Əhməf Şmide sayəsində tanımış olduq.

***- Bəlqıs xanım, indisə Lütfən "Haqqıoğlu" soyadınız barədə...***

- Soyadımız 18-ci yüzillikdə yaşamış olan böyük babamız İbrahim Hakkı Həzrətlərindən gəlir. İbrahim Hakkı Həzrətləri 1703-cü ildə Ərzurumda dünyaya gəlmişdi. 1780-ci ildəsə şeyx İsmayıl Fakirullah Həzrətlərinin məmləkəti olan Tilloda Hakkın rəhmətinə qovuşubdur. Soy olaraq Oğuzların Kayı boyuna dayanan, üləma bir nəsildən gəlir. Ata-babaları Xorasan ellərindən gəlib, əvvəl Sivas ətrafında, sonra da Hasankalədə məskən salmışdılar. Atası Molla Bekir Efendi "1677 - Azak Səfəri" sırasında Krıma getmiş və orada Hakkın rəhmətinə qovuşmuş... Ulu Cami hazirəsinə dəfnedilmiş... Biz onun ailəsi ilə bağlı məlumatları şəxsən Həzrətin yazmış olduğu "Marifetnamə" adlı əsərindən öyrənirik.

İbrahim Hakkı Həzrətləri hərtərəfli şəxsiyyət olub. Bir tərəfdən, nücum, fizika, riyaziyyat, coğrafiya, anatomiya kimi elmlərilə məşğul olmuş bir alimdir. Digər tərəfdən, mənəvi aləminin dərinliklərinə baş vurmuş nəhəng bir mutasavvüfdür. Onun əsrlər boyunca dildən-dilə dolaşan və "Hak şerleri hayr eyler/Zannetme ki gayr eyler/Arif anı seyreyler/ Mevlv görelim neyler/Neylerse güzel eyler" dördlüğü ilə başlayan məşhur tefviznaməsi neçə illərdir ki, insanların üreyinə su səpən əxlaq reçətəsi kimidir. Mutasavvüf olaraq könüllərdə taxt qurmuş bu büyük dəyərin elmi şəxsiyyəti üzərində çox durmayıblar. Oysa o, - Mutlak Hakikatin bilgisinə ancaq elmlə çatmaq olar - deyə söyləyib. Əvvəl "Marifetullah, sonra marifetullah" gəlir. Yəni Yaradanı yaratdıqlarının məlumatından başlayaraq anlaya bilərik. Bu görüşü də təməldə bütün mutasavvüflər kimi iki hadis-i şərifə söykənir; "nəfsini bilən, Rəbbini bilir" və "Mən gizli bir xəzinə idim. Bilinmək istədim". Şeyx İsmayıl Fakirullah Həzrətləri üçün tikdiyi türbə, İbrahim Hakkı Həzrətlərinin bir üləma kimi

mərtəbəsini göstərən vacib bir nümunədir. Görün nə söyləmiş: "İlin ilk günəşi, şeyximin baş ucuna doğmazsa, mən o günəşi neylərəm" deyən İbrahim Hakkı Həzrətləri gecə və gündüz saatlarının bərabərləşdiyi 21 Mart və 23 sentyabr günlərində yeni doğan günəşin şüalarını şeyxinin türbə içərisində yerləşən sanduqəsinin baş daşına yansıtmayı bacarıb. Elm dünyasını bu gün belə təəccübləndirən bu şüa hadisəsini o zamanın şərtləriylə necə baş verdiyi bu günün özündə belə təəccüb doğurur. Türbənin tikilişi, onun eyni zamanda İbrahim Hakkı Həzrətlərinin usta bir memar olduğunu da göstərir.

İbrahim Hakkı Hazrətlərinin bir başqa tərəfi də öyrədən, maarifçi olmasıdır. Kitabında insanlara fazilet sahibi olmağın yol və yordamlarını da öyrədir. Özü şəxsən öyrənmələri üçün tələbələr də oxutdurmuşdur. Ulu babam iki kərə İstanbula səyahət eləyib. Bu səyahətlərin birində Sultan 1-ci Mahmudla da görüşübdür. Sarayın kitabxanasında işləyə bilməsi üçün İbrahim Hakkı Hazrətlərinə izn də verib. İstanbuldan yazdığı məktublar insanlara nümunə olacaq yazılardır. Bu məktublarda mahnılar bəstələdiyindən də söz açar. Çox təəssüf ki, əlimizdə söz açılan bəstələrə dair bir sənəd yoxdu. Fakat musiqi ilə bağlı yazmış olduğu şeir sənətkar dünyasına dair vacib bir ipucudur. Böyük oğlu Fehim Efendi santur çalarmış. Özünün düzəltdiyi əl işləməli santur Atatürk Universitetinin kitabxanasında bizim ailəmizin bağışlamış olduğu digər əmanətlərlə bir yerdə nümayiş olunur. Sonra gələnlərdə də, yəni bizim soyumuzun qeyri davamçılarında da babalarımızın sənətkar ruhunun izlərini görmək heç də çətin deyildir.

İbrahim Hakkı Hazretleri şeiri öz düşüncələrini axtarma vasitəsi olaraq istifadə etsə də, sənət dəyəri baxımından güclü olan şeirləri də az deyil. "Tefviznamə" bunların ən bariz nümunəsidir.

***- Belqıs abla, niyə öz yazılarınızdan, kitablarınızdan bir söz demirsiz?***

- Mən özüm yazı-pozuya lap erkən yaşlarımdan başlamışam. Ailə üzvlərim ədəbiyyatla iç-içə olduğu üçün bu sarıdan köksümüz və qulaqlarımız doluydu. O atmosferin təsiriylə olacaq bəzi şeylər qaralamağa çalışırdım. Hətta ibtidainin dördüncü sinfində bir uşaq romanı belə yazmışdım. Dar, uzun və çox da qalın olmayan bir dəftərin səhifələrini yazıb doldurmuşdum. O zamanlar Kemalettin Tuğcunun kitablarını oxuyub başa çıxmışdım. Mənbilən, elə yazdığım da elə bir şeydi. Nə yazıq ki, dəftəri qoruyub saxlaya bilmədim. Atam məmur olduğu üçün işə təyin olunduğu yerlərə köçəndə bir çox əşyalarımız itib-batdı. Qaralamalarımı atama oxuyurdum. O da məni təşvik üçün yaxşı şeylər söyləyərdi, amma nöqsanlarımı da bir-bir sadalayardı. Bizim zamanlarımızda məktəblərdə kompozisiya dərsləri də keçilirdi. Ədəbiyyat xocalarım mənim yazdıqlarıma çox ciddi yanaşardı. Amma mən özüm o yazılarımı dəyərli saymadığım üçün hər hansı bir məcmuəyə yazı göndərmək barədə heç fikirləşmirdim. əsas gücümü oxumağa verərdim.

***- Neçə illər siz "Türk ədəbiyyatı"vəqfində çox gərgin işləmisiz...***

- "Türk Ədəbiyyatı"nda vəzifəyə başlayında, reportajdı, xəbərdi, tanıtım - və bütün bunları təbii bir axının içərisində özümü yazı dünyasının tam içərisində görüb tapmış oldum. "Türk Ədəbiyyatı" dərgisindən kənarda qısa vaxtda qəzetlərdə və başqa dərgilərdə də yazılarım çap olundu. "Peyğəmbər Öyüdləri" başlığıyla uşaqlar üçün yazdığım kitabçalardan başqa, "Qadın Oradaydı" kitabında Hazreti Asiyeni yazdım. Mələk Paşalı ilə birlikdəsə İbrahim Hakkı Həzrətləri və onun ailəsini anlatan "Aşk ile An seyretmek" isimli kitab hazırladıq. Əlimdə yeni çalışmaların hazırlıqları var, amma yazma işində bir az astagələm. Gündəlük iş-güc başımı qarışdırır, yazmağıma heç fürsət vermir. Bir də ki, heç nə bilmək olmaz... Dünyada elə gözəl ölümlər var ki... Allah-təala gecindən-gözəlindən qismət eləsin. Ya qismət...

